# ADİU ilə Rusiyanın Ali İqtisadiyyat Məktəbinin Milli Tədqiqat Universiteti arasında əməkdaşlıq genişləndirilir

İyulun 3-də Rusiyanın Ali İqtisadiyyat Məktəbinin Milli Tədqiqat Universitetinin (AİM-MTU) (Национальный Исследовательский Университет "Высшая Школа Экономики") rektoru Yaroslav Kuzminov Azərbaycan Dövlət İqtisad Universitetinin dəvəti ilə ali təhsil müəssisəsində qonaq olub.

Qonaqlar ilk olaraq Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib və gül dəstələri qoyublar. Sonra görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın məzarı ziyarət edilib.

Görüş Azərbaycan Dövlət İqtisad Universitetində davam edib. ADİU rektoru, professor Ədalət Muradov çıxışı zamanı iki universitet arasında həyata keçiriləcək planlardan, əməkdaşlığın əhəmiyyətindən danışıb. ADİU ilə Rusiyanın nüfuzlu Ali İqtisad Məktəbinin Milli Tədqiqat Universiteti arasında potensial əməkdaşlığın əsas istiqamətlərinə bakalavriat və magistratura səviyyələrində rus dilində ikili diplom proqramlarının həyata keçirilməsi, qarşılıqlı tələbə və magistrantların, həmçinin professor-müəllim mübadiləsinin həyata keçirilməsi, birgə yay və qış məktəblərinin təşkil edilməsi, müvafiq mövzular üzrə birgə elmi tədqiqatların aparılması və beynəlxalq elmi-tədqiqat qrant layihələrində birgə iştirak edilməsi, hər bir tədris ilində müvafiq sayda tədqiqatçının digər universitetdə tədqiqat aparması, müəllimlərin reytinqinin müəyyən edilməsi üzrə təcrübə mübadiləsi məsələlərinə toxunulub.





Rusiyanın Ali İqtisadiyyat Məktəbinin Milli Tədqiqat Universitetinin rektoru Yaroslav Kuzminov çıxışında yeni tədris metodları, modullar üzrə təhsil, tədris prosesinin elektronlaşdırılması, birgə konfransların (webinar və videokonfranslar da daxil olmaqla) təşkil edilməsi barədə danışıb.

Görüşdə birgə liseyin yaradılması qərarı qəbul olunub. Bakalavriat və magistratura səviyyələrində ikili diplom proqramlarının həyata keçirilməsi, online kursların təşkili və birgə elmi tədqiqatların aparılması barədə qərar qəbul edilib.

Ali təhsil müəssisələri arasında ikitərəfli əməkdaşlığın tarixçəsi 2014/2015-ci tədris ili ərzində hər iki universitetin beynəlxalq əlaqələr üzrə müvafiq strukturları arasında potensial əməkdaşlıq imkanlarına dair aktiv yazışmaların həyata keçirilməsi ilə başlayıb. Bu ilin 14-15 fevral tarixlərində ADİU-da nüfuzlu Ali İqtisad Məktəbinin Azərbaycan üzrə Olimpiadası keçirilib. 50-yə yaxın azərbaycanlı tələbənin iştirak etdiyi Olimpiadada ADİU-nun 2 tələbəsi qalib olub. Hər iki tələbə AİM-MTU-da ödənişsiz magistratura pilləsində təhsil almaq imkanı əldə ediblər. Həmin ərəfədə Ali İqtisad Məktəbinin professoru M.V.Plotnikov tələbələri üçün ustad dərsləri verib.

Bu il aprelin 17-də təhsil nazirinin müavini Ceyhun Bayramovun rəhbərlik etdiyi nümayəndə heyətinin tərkibində "Moskva Beynəlxalq Təhsil Salonun"da iştirak çərçivəsində ADİU ilə Ali İqtisad Məktəbi arasında əməkdaşlığa dair saziş imzalanıb. Sənəd ADİU-nun rektoru, professor Ədalət Muradov və Ali İqtisad Məktəbinin rektoru Yaroslav Kuzminov tərəfindən imzalanıb.

"QS" və "Webometrics" dünya universitetləri reytinqində yer alan Rusiyanın nüfuzlu Ali İqtisadiyyat Məktəbinin Milli Tədqiqat Universiteti 1992-ci ildə yaranıb. Universitet 25 minlik tələbə və 2500 nəfərlik tədris heyətinə malikdir. 35 min tələbəni məzun edən universitet liseydən aspirantura və MBA səviyyəsinə qədər təhsilin bütün pillələrini əhatə edir. Dünyanın qabaqcıl universitetləri ilə mübadilə və ikili diplom proqramlarına malik ali təhsil müəssisəsində sosial-iqtisadi ixtisasları ilə yanaşı, humanitar, mühəndis və kompüter elmləri üzrə geniş spektrli tədris həyata keçirilir.

***"Azərbaycan"***